

*Əli Rza XƏLƏFLİ*

Dağlarda çıraq yanmaz,
İldırımlar çaxmasa.
İstəklər dilə gəlməz,
Həsrət canı yaxmasa.

Doğru söz ürək əzməz,
Bağlı göz düzü sezməz.
Aşiq dillərdə gəzməz
Dəli çayda axmasa.

Yolumu qəza güdər,
Haqq üzü dönər, gedər.
Məni zülmət qərq edər
Bəxtimə gün çıxmasa.

Bir qovam, çaxmaq çaxı,
Qoy yanım çaxı, çaxı...
Könlüm açılmaz axı
Gülüm mənə baxmasa.

Dərdimdən dərd dərərəm,
Gül üzünə sərərəm.
Harda olsan görərəm,
Qəm evimi yıxmasa.

Bir olduq, bir döyüşdük biz cahan savaşında,
Əməlimiz yaşayır tarixin yaddaşında.

Əvəzində nə gördük qanlı Yanvar günündə,
Ölümlər qanlar gördük Allahın var günündə.

Əziz dostum, zənn etmə, varlığın unudular,
Qəlbimdə insanlığa sarsılmayan sevgi var.

Yeseninə sevgidən sən abidə qoymusan,
Abidəni qəlbindən qəlpə-qəlpə oymusan.

Sən şairi Bakının öz övladı bilmisən,
Sözün sevgi bağına məhəbbətdən gəlmisən.

Azərbaycan sevgisi çiçək açıb özünlə,
Ruhumuza qaytardın  Şahanəni sözünlə.

Açılırdı gözümdə sənin qönçə güllərin,
Mənə nəğmə deyirdi ötən şirin dillərin.

İlhamım çağlayırdı sözün gülgün çağında,
Könlüm qanad çalırdı eşqin uca dağında.

Bir acı xəbər gəldi, qəlbimin başı yandı,
Varlığımda duyğular dərdə, qəmə boyandı.

Səhhəti zədə alıb qəzanın qədərindən
Sinəmdən bir ah qopdu, pay aldı kədərimdən.

Sözümün axarını dəyişdi acı külək,
Dilləndi daş qəzəbim - sən neylədin, ey fələk.

Əl açdım dərgahına - Allahım, kömək elə,
Dostum İsaxan üçün hər sözüm gəldi dilə.

Sözün gülüstanında dostum yenə öyünsün,
Böyük sənət eşqinə qəlbi yenə döyünsün.

Həllini Allah bilir mürəkkəbin, sadənin,
Ruhunu çağırıram Fərhad Ağazadənin.

Odu hələ sönməyib fədakar inamların
Maarifçilik yolunda yandırdığı şamların.

Sən tədqiq eləmisən xalqın əziz oğlunu,
Yeni əlifba üçün mübarizə yolunu.

Bilirəm, bir gün gələr, insanlığa gün doğar,
İnsanların dilindən doğru yağar, düz yağar.

...Ay İsaxan, söz məni çağırır İlqargilə,
Sözlənir varlığımda duyğular gilə-gilə.

Bir demirsən İlqarın bəxtinə gün doğdumu,
Yoxsa onu taleyin sərt əlləri boğdumu?..

Yaxşı-yaman içindən yol açdımı özünə,
Yoxsa yanıb ütüldü öz eşqinin közünə.

Soruşmursan axı sən harda qaldı Nanası,
Harda qaldı İlqarın sevgisinin sonası.

Sən təki özün qayıt sağlamlığa, sağlığa,
Könlümüz işıq salsın aranlığa, dağlığa.

İndi mən soraq salım o günlərə, aylara,
Yol tapım, cığır açım qəm evi saraylara.

Tanrı mənə güc verər, yarı yolda qalmaram,
Sözümdə güllər açar, mən özüm də solmaram.

...Aşiqlərin dərdini özləri bilir ancaq,
Necə yanıb-yaxılır, közləri bilir ancaq.

Bir kimsəyə deyilməz sevgi ağrı-acısı,
Sevənləri yaşadar eşqin doğru acısı.

Könüllərdə gül açar arzular, diləklər də,
İki canda bir vurar döyünən ürəklər də.

Bilinməz nə yazılıb insanın taleyində,
Kimsə bilməz nə qalar zamanın ələyində.

Düşüncələr İlqarı dağdan-dağa atırdı,
Bəlkə tənha bir gəmi... dalğalarda batırdı.

Nananın anasını o, sakitcə dinlədi,
Sevgisi sinəsində səssiz-səssiz inlədi.

Necə qıyır insanlar, sevgi gülü saralsın,
Sevənlərin qəlbində günəş sönsün, qaralsın.

Bir ümid gətirmişdi bu görüşə İlqarı,
Bəlkə qayıdar yenə sevgisinin baharı.

# VI. Böhran... intihara cəhd

## *“Ölməyən sevginin dastanı” əsərindən parçalar*

Ey əzizim, İsaxan, göylər yaman qarışıb,
Aldığımız havaya tozlu duman qarışıb.

Açıq dişlər qıcanır bu vətən torpağına,
Qəzəblər kin püskürür ay-ulduz bayrağına.

Cənubdan hədə-qorxu, şimaldan təhdid gəlir,
Göz qoyur əzvayişə, meydanda şeytan gülür.

Milçəyi qova bilmir qoca şirin quyruğu,
Fitvası lağ yeridir - «ay uyruğu-uyruğu».

Qırmızı cizgi çəkib Zəngəzurun yoluna,
İndi göydən od yağır baş soxduğu koluna.

Mağarası dağılır şimal ayısının da,
Xətası bizdən uzaq - axırında, sonunda.

Aranı qarışdırıb kin-ədavət yaradır,
Hər qətliam, nahaq qan qəlbimizdə yaradır.

Heç nədən  öldürülüb qardaşları dostumun
Kin göyərir bətnindən bu toxumun, bu tumun.

Qurtarmır ədavəti qonşulara ayının,
Dağılmır bünövrəsi istibdad sarayının.

Nəsrində, şeirində fikir dərin, söz dərin,
Ruhumuzu oxşayır tərcümə əsərlərin.

Ömür-gün yoldaşına sevgili duyğuların
Sənin ilham qaynağın - sözdə solmaz baharın.

Bir sevgi dənizində özün yaşıl adasan,
İlhamımı çağıran cazibəsən, sədasan.

Səninlə bir gəzmişik sözün güllü bağında,
Qəlbimiz bir döyünüb bir eşqin sorağında.

Sözümlə, sənətimlə çox mənalar toxudum,
«Bir sevgi dastanı»nı nəğmə kimi oxudum.

Dil açdı ilhamımla telləndi duyğularım,
Bir ölməyən sevgidə gəldi təzə baharım.

Bu mənzum romanın varlığında adın var,
Tez sağalıb qayıtsan qəlbimə günəş doğar.

Yenilməyən gücü var dostluğun, qardaşlığın,
Biz üstündən keçərik tikanlığın, daşlığın.

Çox haqsızlıq görmüşük bu cahan bazarında,
Yaşadıq, ömür keçdi haqqın intizarında.

Kinayəli bir gülüş varlığını yeyirdi,
Bəxtinin ağır yükü qamətini əyirdi.

Fikirləri qarışır, dumana bürünürdü,
İradəsi sozalır, çarəsi sürünürdü.

Aşiqlərin qəm yükü dağ olur, çəkilməzdir,
Ümidsizlik bağında nə bitər... əkilməzdir.

Bir söz deyə bilməzdi qardaşı Vüqara da,
Məğlubiyyət acısı göynəm olar yarada.

Əvvəllər düşünürdü sevgini kimsə danmaz,
Qərəzlər ocaq çata, aşiqlər oda yanmaz.

Eşqinə güvənəni dünya qoyur gümansız,
Niyə belə sər olur - həyat acı, amansız.

Xəyal onu aparır doğma yurda... dolanır,
Hardadır uşaqlığı -  həsrətinə qalanır.

Arxasınca su atan ana əli titrəyir,
Uğur olsun, ay oğul, - sözü, dili titrəyir.

*(Davamı 9-cu səhifədə)*

# VI. Böhran... intihara cəhd

## *"Ölməyən sevginin dastanı" əsərindən parçalar*

*(Əvvəli 8-ci səhifədə)*

İndi budur uğurum, yolum belə bağlanıb,
Sən bilmirsən, ay ana, sinəm necə dağlanıb?

Əvvəl elə bilirdim Tanrı mənə yol açar,
Sevənlərin yolundan şər özü uzaq qaçar.

Nə biləydim həyatın necə iti dişi var,
Bilməzdim mənə qənim taleyin gərdişi var.

İztirablar içində çırpınırdı ürəyi,
Onun könül evində titrəyirdi diləyi.

Ayrılıb evə gəldi Nananın anasından,
Allaha rəvadırmı ayrılsın sonasından.

Qız qaçırmaq nə demək, budurmu yeganə yol,
Budurmu insanlığa yaraşan biganə yol?..

İlqarın fikirləri dağ-aran daşıyırdı,
Düşüncələr içində iztirab yaşayırdı.

Axı necə olsun bəs, mənim toy arzularım,
Ağ gəlinlik donunda gülməsinmi baharım.

Bu yerdə son söhbəti... yaddaşı təzələndi,
Dolaşıq fikirləri birbəbir çözələndi.

Yada saldı Nananın sözlərini, düşündü,
Qəlbindən külək əsdi, varlığından üşündü.

Sevənlərin qənimi "din ayrı" hökmü varmış,
Sevənlərin bəxtinə qara qar da yağarmış...

Asta-asta danışan Nananı dinləyirdi,
Tərəddüdlü duyğular varlığını yeyirdi.

Sən türksən, ay İlqarım, mən erməni qızıyam,
Bəlkə, sənin bəxtinə elə qara yazıyam.

Erməni qızı sevən biri olub sizlərdə,
İntihar edib sonda dözə bilməyib dərdə.

Burda onun sözünü İlqar kəsdi, dilləndi,
Fikirləri qarışdı, duyğuları lilləndi.

Handan-hana İlqarın sözü duruldu, gəldi,
Xəyalında sevginin taxtı quruldu gəldi.

Bilirəm, Bahadırı yada saldın bu yerdə
Görürəm qorxunu mən səsindəki kədərdə.

Onu çəkib apardı taleyinin qədəri,
"Din ayrı" ədavətin uçurum dərələri.

Ay mənim Nanacığım, ürəyini sıxma heç,
Keçmişdə qalanlara bundan sonra baxma heç.

Bu, bizim yazımızdır, gəl özümüz qol qoyaq,
Qoy sevgimiz aparsın bəxtimizə yol qoyaq.

Heç olubmu, de görüm, asanlığın tarixi,
Ziddiyyətlər çox görüb insanlığın tarixi.

Mən Bahadır deyiləm, sən də Sona olmazsan,
Bu yolu bir gedərik, yarı yolda qalmazsan.

Bizim Nəriman yazıb «Bahadır və Sona»nı,
İnsanlığa sevgiylə yaradıb o, romanı.

Gəl keçmiş yaraları didməyək, qanatmayaq,
Oxuyaq ibrət üçün düz yolu unutmayaq.

Bu sevgi bəxtimizə gözəl günlər gətirsin,
Qoy bizi inadımız xoş günlərə yetirsin.

Son anda, son məqamda həqiqət qalib gəlib,
Həqiqət nəmərini haqlılar alıb gəlib.

İnanıram bu yoldan biz də qalib çıxarıq,
Biz də bir gün dünyaya sevgimizlə baxarıq.

...Çökmüşdü yollarına indi qara dumanlar,
Təzadların içində toqquşurdu gümanlar.

«Götür qızı qaçır sən»... bu yolu getməyəcək,
Bu şərtlər, bu tələblər yerinə yetməyəcək.

...Beləcə bir neçə gün ötüb keçdi sükutda,
Əziz dostum, bilirsən, ömür heçdi sükutda.

Bu heç olan sükutu dağıtmağa güc gərək,
Qırılmayan iradə, dözüm gərək, öc gərək.

Özün yaxşı bilirsən İlqar necə dərd çəkir,
İztirablar qəlbini, varlığını sərt əkir.

Ruhuna hökm edirdi qızı görmək istəyi,
Bu görüşdə Nanadan inam dərmək istəyi.

...Ali məktəb həyatı - gəncliyin gözəl çağı,
Ən gözəl arzuların gül açan bahar bağı.

İlqarın gözü gəzir, bəs hardadır Nanası,
Varmı heç onun kimi öz eşqinə yanası?..

O, tapmadı Nananı, təşvişlə doldu qəlbi,
Ümidi doğrulmadı soluxdu, soldu qəlbi.

Dönüb getmək istədi, ümidsizlik içində,
Bu dünya bir zəmidir hərə bir cür biçində.

Birdən gördü Gülyanı bəlkə, bir xəbər deyər,
Ümidinə gün doğar, qəlbinə təpər deyər.

Ağrılı bir görkəmlə Gülya onu yanladı,
Sən özünü ələ al, - hələ bir az danladı.

Dünya dağılmayıb ki, sən üzülmə bu qədər,
Yazıya pozu yoxdur, - belədir qəza-qədər.

Atasının hökmünə tabe olub Nana da,
Başqasına "hə" verib... yaman solub Nana da.

Moskvada yaşayan bir erməni dığası,
İndi nişan gətirər, odur hökmün ağası.

Düzmü eşitdi İlqar, bu xəbər nə deyirdi,
Bu axşam nə deyirdi, bu səhər nə deyirdi.

Bir şimşək çaxdı sanki nəfəsindən od çıxdı,
Dili-ağzı ütüldü, ahından fəryad çıxdı.

Gülya tutdu qolundan silkələdi İlqarı,
Tufan selə dönürsə, nə dəyişər axarı?!

Qız gördü betər oldu xəbərdən gələn yara,
Sakit ol, deyə-deyə onu çəkdi kənara.

Bir az səssiz qaldılar, sükut keçdi aradan,
İlqar necə sağalar bu aldığı yaradan.

Vulkanlar püskürəndə dağlar uçar, tökülər,
Çaylar axar itirər yerin bağrı sökülər.

Gülya səssiz düşünür, neyləyim axı İlqar,
İnsanlığa yağıdır amansız qəddarlıqlar.

Gülya kədər içində asta-asta dilləndi,
Təmkinini qorudu, o, ahəstə dilləndi.

Çıxış yolu, biləsən, sən tərəfdə, yöndədir,
Yaxşı düşün, ay İlqar, gələcəyin öndədir.

Qismətinə gələcək həyatın gözəl çağı,
Bilirəm, əyilməzsən, çəksən də Ağrı dağı.

Gəl səni yola salım, get evə özünə gəl,
Yaxşı-yaxşı fikirləş, məramın düzünə gəl.

Gülyaya təşəkkürlə ayrıldı ondan İlqar,
Hansı yolu seçəcək... həyatın çox yolu var.

çıxdı açıq havaya, külək dəydi üzünə,
Düşüncəsi duruldu doğrusuna, düzünə.

Yox, belə olmaz, - dedi, Nananı özüm görüm,
mən üzbəüz danışım, doğrunu, düzü görüm.

İlqar yolu dəyişib üz tutdu məramına,
Deyəcəyi hər sözü düz tutdu məramına.

Yol boyu düşünürdü çatınca Nanagilə,
"Zarafatdır"deyəydi Nana da gülə-gülə.

Beləcə, ümid, istək yol boyu yoldaş oldu,
Varlığına qətiyyət, iradə, inam doldu.

Qapını döydü İlqar, bir az səssiz gözlədi,
Dəqiqələr ötdükcə sinəsini közlədi.

Birdən qapı açıldı, gözlər göz-gözə gəldi,
Təzadlar, ziddiyyətlər necə üz-üzə gəldi.

İçəri keçdi İlqar, salam-kəlam olmadı,
Açıq sorğu-sualdan başqa bir yol qalmadı.

Deyilənlər doğrudur? - baxdı qızın gözünə,
Qəzəbi açıq-aşkar qarışmışdı sözünə.

Neyləyim axı, İlqar, daha dözə bilmədim,
İstəyimi qoruyub haqqa düzə bilmədim.

Nana da gtzlətmədi xəcaləti göründü,
Çəkdiyi iztirablar kədərinə büründü.

Keçə bilmədim, neynim, mən anamdan, atamdan,
Çatmadı qətiyyətim ayrı düşdüm inamdan.

Nana bunu söyləyib hönkür-hönkür ağladı,
Yaradan özü bilir, tale məni dağladı.

Elə deyil - qəzəblə dilləndi İlqar yenə,
Bilirsən ki, seçimin xəyanət oldu mənə.

Ağlar gözlü Nana da yandığını deyirdi,
Təzim ilə başını xəcalətlə əyirdi.

Bilirsən ki, mən səni sevirdim dünyalarca,
İstəyim qışa döndü, yaşamadım baharca.

Əzirdi ağrı yükü sinəsində İlqarı,
Deyərdin kəsilmişdi taqəti ixtiyarı.

Handan-hana dilləndi, sonuncu sözü dedi,
Qəhər boğdu səsini, sonsuz kədər, qəm yedi.

Getdin xoşbəxt olun siz, daha mənim sözüm yox,
Qaldı acı xatirə, bundan sonra özüm yox.

Pıçıldadı astaca sözü dildə titrədi,
Xəzan vurmuş bir eşqin özü güldə titrədi.

Dönüb çıxdı qapıdan sinəsində dərd yükü,
Dərd çəkilməz oldusa, çəkər hansı mərd yükü.

Yolüstü dönüb baxdı, varmı bircə simsarı,
Ürəyimi titrədir qışa dönən baharı.

*(Davamı 14-cü səhifədə)*

# VI. Böhran... intihara cəhd

## "Ölməyən sevginin dastanı" əsərindən parçalar

*(Əvvəli 9-cu səhifədə)*

Axı burda bir zaman tənha çinarı vardı,
Onunla Nanagilin eyvanına baxardı.

Susurdu çinarın da yarpaqsız budaqları,
Çinar da sükut ilə ötürürdü İlqarı.

O çinara söykənib ağladı hönkür-hönkür,
Çinarın sinəsini dağladı hönkür-hönkür.

Ürəyini boşaldıb sakitləşdi bir qədər,
Ayrıldı çinarından varlığında qəm çəkər.

Bir də burdan keçərmi... cavabsız sualları,
Onu didib sökürdü ağrılı xəyalları.

Gecədən xeyli keçmiş evə çatdı çox yorğun,
Yerə, göyə, üfüqə boylandı oğrun-oğrun.

Göy üzündə ulduzlar sayrışırdı səssizcə,
İlqarın duyğuları qarışırdı səssizcə.

Yer üzünün zülməti çökmüşdü qəlbinə də
Zülmət ayaq açmışdı qəlbinə hər tinə də.

Tənhalığın içində kim gələr sorağına,
Astacasalam verib adladı otağına.

Vurnuxdu yatağında yuxusu da gəlmədi,
Qurduğu xəyallarda gələcəyi gülmədi.

Mənasız görürdü o, yaşamağı həyatda.
Bir yararsız heç idi gözlərində həyat da.

Bir ah qopdu qəlbindən... nəyə lazım var olum,
Nəyə lazım Nanasız yaşayım, İlqar olum.

Qaldırdı yatağından dumanlı düşüncələr,
Düşündü bir heçlikdə rahat olar, dincələr.

Səssiz açdı qapını, keçdi açıq eyvana,
Dördüncü mərtəbədən göz gəzdirdi hər yana.

Aşiqlərin pənahı, hardasan, ümid gətir,
Ümidsizlik içində, bəlkə, bir ömür bitir.

Göy üzündə ulduzlar sayrışırdı deyəsən,
Yerdəki işıqlarla yarışırdı deyəsən.

Ey arzular, gedirəm, bu dünyada qalın siz,
Ey aşiqlər sevgimi bir əmanət alın siz.

Əlvida, ey taleyim, könül bağım, əlvida,
Əlvida ey əlyetməz sevgi dağım, əlvida.

O, qalxdı məhəccərə özünü atmaq üçün,
Sonuncu məqsədinə bir anlıq çatmaq üçün.

Bu anda gözlənilməz bir əl tutdu qolundan,
Çəkib qaytardı geri, saxladı səhv yolundan.

Onu gözdən qoymayan Nərminəydi xilaskar,
Neyləyirsən, sakit ol, dayan görüm, ay İlqar.

Ana-bacı duyğusu İlqara həmdəm oldu,
Sonsuz qəmin yerinə - qəlbinə inam doldu.

Vüqar da durub gəldi bu hay-küyə, təşvişə,
Təmkiniylə deməyə öz sözünü gərdişə.

Həyata son verməyin çıxış yolu deyil heç,
Həyatda mübariz ol, demirəm ki, əyil, keç.

Vüqarın təmkinindən, sakit, asta sözündən,
Özünə gəldi İlqar, utandı da özündən.

Açıldı yavaş-yavaş avazıyan rəngi də,
Sakit axara düşdü nəbzinin ahəngi də.

Beləcə xilas oldu İlqarın da taleyi,
Əsmədi taleyindən bəxtin acı küləyi.

Xələflinin sözünə üz tutdum, təzim etdim,
Qəlbimin Kəbəsinə sözümlə belə yetdim.

Gəldi Əli Rzadan bir təxmis, üzə güldü,
Bülbülü ağlasa da, qönçəsi sözə güldü.

Sən gəlmədin gözəlim, ürəyim yol-yol oldu,
Həşəm oldu çiçəyim, töküldü pul-pul oldu.
Xəzan vurdu bağımı, güllərim kol-kol oldu.
Gözlərimdə göllənən göz yaşım sel-sel oldu,
Axdı könül evimə, gör necə göl-göl oldu.

Sevənlərə qənimdir sevgisizlər hər zaman,
Ümidlər çiçək aça... olmadı bircə güman;
Bu qansız edamlardan doymadı heç bu cahan,
Bilmirəm, bu, nə nalan, sinəmdən qopdu tufan,
Əsdi səmum yelləri ürəyim tel-tel oldu.

Sözün də vüsalı var, kam ala, toy göstərə,
Yaşaya sevənlərin eşqi də soy göstərə.
Tənhalardan qəlbimə səs gələ, hay göstərə,
Arzularım bitsə də, yağmadı boy göstərə,
Vağanıyan zəmidə, ütülən sünbül oldu.

Nə ola, gül üzünü göstərəsən, bir görəm,
Açıla qaş-qabağın, sözündən sevgi dərəm.
Deməidim həsrətindən qəm tikəm, kədər hörəm,
Mənim könül bağıma yol salmadın bir kərəm,
Dərd özü qönçə-qönçə açıldı gül-gül oldu.

Sinəm dərdin meydanı, zərinə nərd daşıdım,
Tənələrə verdiyim cavabı sərt daşıdım.
Sevgimdən nə gəldisə, pay bildim, mərd daşıdım,
Mən dedim, mən eşitdim... qəm dərdim, dərd daşıdım,
Bu dilbilməz könlüm də oxudu bülbül oldu.

O aşiq aşiq deyil, sevgisindən usandı,
Məcnunluğun yolunu aşiq sanmaz asandı.
Çən gəlsə dağ üstünə, zirvələri basandı,
Tuş gəldi bədnəzərə, qədəhim qəfil sındı,
Qəlbimin qanı axdı, töküldü qül-qül oldü.

Əli Rza öz eşqində bir sarsılmaz qaladı,
Aşiqlərin qisməti - savaş adı, qal adı;
Eşitmədi məni heç, ha desəm də bəladı,
Xələfli sevgisini sözdə oda qaladı,
Düşdü dilə-ağıza, özü də dil-dil oldu.

Buludun çiskin yağır,
Tutulub, küskin yağır...
Günahım nə oldu ki,
Qəzəbin kəskin yağır...

Araya tirə salma,
Yolumu pirə salma...
Hirsinə qurban olum,
Sözümü yerə salma...

Sına qoruq-qadağa,
Çata mənə sadağa...
Qolum dolana belə,
Gələk dodaq dodağa...

Dilimdə adın sənin,
Yadımda yadın sənin...
Qarğışım var biləsən,
Sına inadın sənin...

Bəxti bağlar qoymağa,
Açıb dağlar qoymağa...
Qismətimə tuş gəldin,
Məni ağlar qoymağa.

Sən sözündə alasan,
Al dilində alasan...
Nə olar ki, könüldən,
Salamımı alasan.

Sözü de, dilə salma,
Düzü de, ələ salma...
Gözümə bax mərdanə,
Fənd elə, felə salma...